## *AzTU Könüllüləri Təcrübə Proqramı*

“Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən könüllülük fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyət hesab olunur.

Qanunamüvafiq olaraq Azərbaycan Texniki Universitetində könüllü fəaliyyətin əsas etibarı ilə aşağıdakı istiqamətlər üzrə təşkil olunur:

- Universitetimizə yeni qəbula gələn tələbələrin qarşılanması, qeydiyyata alınmasına, şöbələr tərəfindən qəbulunun təşkilinə köməklik göstərilməsi;
- Strukturlara tələb olunan müvafiq kriteriya və tələblərə uyğun könüllü tələbələrin yönləndirilməsi;
- Sənədlərlə və tələbələrin müraciətləri ilə kargüzarlıq işlərinin aparılmasına müvafiq köməklik göstərilməsi;

Tələbələr könüllülük fəaliyyətinə 3 ay müddətinə qoşulur, müxtəlif sosial bacarıqları, əmək vərdişlərini təkmilləşdirir, real iş mühitinə uyğunlaşaraq gələcək karyeralarına öz töhfələrini verirlər.

Strukturlar üzrə gündəlik olaraq 2 növbədə könüllülük fəaliyyəti təşkil olunur və könüllülər istədikləri növbə üzrə fəaliyyətə qoşula bilər. Növbələrin bölgüsü aşağıdakı kimidir:

- 09:00-13:00 – Birinci növbə
- 14:00-17:00 – İkinci növbə

Tələbələr könüllü kimi 3 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vurduqdan sonra gənclərin hər birinə diplomlar verilir ki, bu da onların növbəti iş həyatına uğurlu bir keçid fürsəti olacaqdır. Gənclərin iş fəaliyyətini yüksəltmək və motivasiya məqsədilə onlar müvafiq meyarlara əsasən fərqlənmə diplomu ilə təltif olunurlar.

Statistik olaraq, iyun – avqust ayları ərzində 33 tələbə, sentyabr – dekabr ay aralığında isə 25 tələbə strukturlarda könüllü fəaliyyəti bitirmişdir. Proqramdan məzun olmuş 4 nəfər tələbə universitetimizdə uyğun vakansiyalara görə işlə təmin olunmuşdur.